# Unudulmaz teatr və kino aktyoru



**Xalq artisti Lütfəli Abdullayevin ifa bacarığı, səhnədə yaratdığı obrazlar ehtiramla xatırlanır, ekran əsərlərində oynadığı rollara həvəslə baxılır. Azərbaycan Dövlət Film Fondu sevimli aktyorun 46 il əvvəl çəkildiyi qısametrajlı filmin təqdimatına hazırlaşır.**

Bu münasibətlə fondun direktoru, əməkdar incəsənət xadimi Cəmil Quliyevlə görüşdük. O dedi: - Lütfəli Abdullayev Şəkidə dünyaya göz açmışdı. Onu ehtiyac, zamanın sərt mühiti sıxmışdı. Amma arzularını dondura bilməmişdi. 14 yaşında Bakıya gəlmiş, Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdı. Bir müddət Opera və Balet Teatrının xor truppasında fəaliyyət göstərmişdi. Görkəmli səhnə xadimləri Mirzağa Əliyev, Sidqi Ruhulla, Ələsgər Ələkbərov, Hacağa Abbasov, Əhməd Anatollu gələcək gülüş ustasının xeyirxah məsləhətçiləri, qayğıkeş dostları olmuşdular. O, 1938-ci ildən yeni yaranan Musiqili Komediya Teatrında çalışmış, bir-birindən baxımlı rollar oynamışdı. L.Abdullayev səhnədə heç kəsi təkrar etmir, ifa bacarığı, oyun tərzi, estetik meyarı ilə seçilirdi. Yaratdığı obraz üçün yeni və orijinal çalarlar tapırdı. Həmin illərdə "Ər və arvad", "O olmasın bu olsun", "Arşın mal alan" və başqa operettalarda oynadığı rollar ona böyük nüfuz qazandırmışdı. İfasında əsas diqqətçəkən cəhət isə satirik gülüşünü rüşvətxorlara, nadan və mənsəbpərəstlərə qarşı çevirməsi olmuşdu. Ömrünün sonuna qədər gördüyü yaxşılıqlara görə Şəmsi Bədəlbəyliyə və Süleyman Ələsgərova minnətdarlıq etmişdi.

Lütfəli Abdullayev teatr uğurlarından daha çox kino sənətində - oynadığı beş filmdə tanınmış, sevilmişdi. 1945-ci ildə "Arşın mal alan"ın ekrana çıxması ilə yeni sənət karyerası başlamışdı. Yaratdığı Vəli obrazı dünyanın 55-dən çox ölkəsini gəzmiş, aktyora şöhrət qazandırmışdı. Filmin digər ifaçıları ilə birlikdə o da SSRİ Dövlət mükafatına layiq görülmüşdü.



Unudulmaz aktyor "O olmasın, bu olsun" filmində qoçu Əsgərin əlaltısı rolunu oynayır. Həcmcə kiçik olan ifasını xarakter dərəcəsinə yüksəldə bilmişdi. Daha sonra "Əhməd haradadır?" filminə çəkilir. Nərgiz xalanın Zülümovun otağına girib oğlu Əhmədi axtardığını bildirdiyi səhnəni xatırlayın. Bu epizodu yalnız o, şirin, dadlı-duzlu oynaya bilərdi. "Aparatda Zülümovdur", "Buna bir quş" ifadələri bəlkə də ssenaridən gəlməyib, elə onun öz deyimləridir. "Ulduz" bədii filmində oynadığı Məhəmməd rolunda danışığı, yerişi, ümumiyyətlə, ifasında nə görünürsə, hamısı təbiidir.

Yaxın günlərdə respublika Mədəniyyət və Turizm Nazirliyinin köməyi ilə rejissor Rəşid Atamalıbəyovun 1962-ci ildə çəkdiyi "Payız konserti" qısametrajlı filmini uzun illərdən sonra axır ki, Fonda gətirə bilmişik. Onu diqqətlə, qayğı ilə bərpa etmişik. Tezliklə kinosevərlərə göstərəcəyik. Lütfəli Abdullayev orada aparıcı rolunu oynayır. İştirakçılar isə Şövkət Ələkbərova, Əminə Dilbazi, Rauf Atakişiyev, Müslüm Maqomayev və başqalarıdır.

***... Zarafatcıl, daim şən ovqatlı, bənzərsiz səhnə və kino aktyoru L.Abdullayev qırx ilə yaxındır ki, dünyasını dəyişib. Lakin o, dönə-dönə yad edilir. Ondan qalan yadigarları isə qorumaq, gələcək nəsillərə ərməğan etmək bizim mənəvi borcumuzdur.***

● T.AĞAOĞLU

